

İSMAYIL ZƏNGİLANLI

# SABAH ŞUŞADA

Bu gün Mərcanlıya, sabah Qumlağa,
Sonra Şuşamızı tutaq bayrağa.
Sevinənlər gəlsin gözəl növrağa,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Üzü Xankəndinə durub ordumuz,
Çoxdan idi ora getmək arzumuz.
Bu xəbərdən çox şad oldu xalqımız,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Fərman verib, Ali Baş Komandan,
Döndü dağa ürəyimiz o andan.
Neçə oğulların keçibdi candan,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Zəngilan, Qubadlı can üstündədi,
Həkəri, Oxçuçay çox pis gündədi.
Xan Çinar meşəsi dilimizdədi,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

O Cocuq Mərcanlı şəhər olacaq,
Adını da Lələtəpə qoyacaq.
Ermənidən torpağını alacaq,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Kəlbəcərlə Laçın qəm içindədi,
Təklənib dağların bir küncündədi,
Hazırda ordumuz yol üstündədi,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Ağdam Qarabağın gözü olubdu,
Hər zaman deməyə sözü olubdu.
Füzuli də qəm içində qalıbdı,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Ürəkdən sevindik bu qayıdışa,
Baş əyirəm o torpağa, o daşa.
Birləşən türk xalqı həmişə yaşa,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Lələtəpə erməniyə dərs olub,
Dözə bilmir, o da yaman dərd olub.
Qaça-qaça el içində pərt olub,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Çaşbaş qalıb erməninin ordusu,
Ölən yazıq kasıbların balası.
Yerdə qalmaz anaların naləsi,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Ölmək istəmirsən boşalt yerimi,
Çıxmasan ordumuz qırar belini.
Çıxaracaq kürəyindən dilini,
Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Millətimin ruhuna təb gəlib,
Əsgərlərin qollarına güc gəlib.
Torpağını almağına söz verib,

Bu gün Mərcanlıda, sabah Şuşada,
Yaxın vaxtda biz olarıq orada.

Azərbaycan kim olduğun bilərsən,
Qarabağda bayrağını görərsən.
Gah dizinə, gah başına döyərsən,
Bu gün Mərcanlıda, sabah Şuşada
Yaxın vaxtda biz olarıq orada.

## AĞAM, SİZƏ RƏHMƏT OLSUN

***(Azərbaycanın, eləcə də Qafqazın tanınmış seyidlərdən olan Seyid Həsən Ağaya (1888-1984) ithaf edirəm)***

Ağam, hər an yaddaşdasan,
Hər məclisdə söhbətdəsən.
Xalqımızın dilindəsən,
Ağam, sizə rəhmət olsun.

Baxışınız loğman idi,
Əlləriniz təbib idi.
Hər sözünüz vacib idi,
Ağam, sizə rəhmət olsun.

Çox dəyərli yaşadınız,
Bu həyatda iz qoydunuz.
Həmişə öndə oldunuz,
Ağam, sizə rəhmət olsun.

Xeyirxah işlər gördünüz,
Həmişə yadda qaldınız.
Xəstəyə şəfa verdiniz,
Ağam, sizə rəhmət olsun.

Saf danışıb, xoş gülərdin,
Hər kəsin yerin bilərdin.
Mənalı həyat sürərdin,
Ağam, sizə rəhmət olsun.

Evin qonaq-qaralıydı,
Fərqi yoxdur haralıydı.
Əlləriniz şəfalıydı,
Ağam, sizə rəhmət olsun.

Unudulmaz adınız var,
Ürəklərdə odunuz var.
Qərib olan yurdumuz var,
Ağam, sizə rəhmət olsun.

Siz cənnətməkan oldunuz,
Haqq evinə qovuşdunuz.
Mömin həyat yaşadınız,
Ağam, sizə rəhmət olsun.

## AY ZƏNGİLANIM

Yaman intizarda qalıb ürəyim,
Qaldın yad əllərdə, ay Zəngilanım.
Ürəyim san atır gələm yanına,
Axtardım, olmadı yol, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Mən burda qüssəli, sən orda qəmli,
Millətim çöllərdə qalıbdı dərdli,
İşlərimiz olub yaman dəhşətli,
Olmuşdun ağızda bal, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Yaylaqların tapdaq oldu düşmənə,
Bu həsrətin dağ çəkibdi sinəmə,
Zindan olub bu ayrılıq, bil, mənə,
Sərvəti, neməti bol Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Yola dikib neçə gəlin gözünü,
Neçə sevgi almayıb "hə" sözünü,
Ümidsız neçəsi yumub gözünü,
Ana ol, qoynuna al, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Hələ qurumayıb gözlərin nəmi,
Çəkilməyib hələ dağların çəni,
Millət ürəyində gəzdirir qəmi,
Hər gesə yuxumda qal, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Söhbətlər çox oldu, iş gözə dəymir,
Düşmən azğınlaşıb söhbətə gəlmir,
Vətənsiz yaşamaq heç xoşa gəlmir,
Gəlirik, arxayın ol, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.

Görən Allah, bizə kimlər qarğadı,
Neçə şəhid anası yas saxladı,
Ürəyinə neçəsi daş bağladı,
Olubdu dilləri lal, Zəngilanım.
Salım mən boynuna qol, Zəngilanım.